Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Jl. Mas Putih Blok D Persil 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@u.net.id

# Press-reliz

Azərbaycan Respublikasının Səfirliyi İndoneziya Respublikasının Xarici İşlər Nazirliyinə, Cakartadakı bütün Diplomatik, Konsulluq və Birləşmiş Millətlər Təşkilatının nümayəndəliklərinə, ASEAN Katibliyinə və Avropa Komissiyasının Nümayəndəliyinə öz ehtiramını bildirir və Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki erməni separatçı rejiminin 19 iyul 2007-ci ildə "Dağlıq Qarabağ Respublikasının Prezidenti" seçkiləri adlandırılan seçkilər keçirmək niyyətində olduğunu bildirməyi özünə şərəf bilir.

Üzdəniraq "seçkilər" Azərbaycan Respublikasının Konstitusiyasına, eyni zamanda beynəlxalq hüququn prinsiplərilə ziddiyyət təşkil edir və davam edən sülh danışıqlarına əngəl törədir. Bu hərəkət və onun nəticələri davam edən təcavüz, işğal və Dağlıq Qarabağ bölgəsindən yerli əhalinin üçdə birini təşkil edən yerli azərbaycanlı əhalisinin güc tətbiq etməklə ərazidən qovulması şəraitində heç bir qanuni qüvvəyə malik ola bilməz.

Dünya birliyi erməni separatçılarının əvvəllər də "seçkilər" və "referendumlar" keçirmək cəhdlərini rədd etmiş və bu BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993), 884 (1993) saylı Qətnamələrində və ATƏT, İKT və GUAM-ın müvafiq qərar və bəyannamələrində öz əksini tapdığı kimi, Dağlıq Qarabağın Azərbaycan Respublikasının bir hissəsi olduğuna aydınlıq gətirmişdir.

Bu "seçkilər" ATƏT daxil olmaqla beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü çərçivəsində münaqişənin sülh yolu ilə həlli istiqamətində aparılan müsbət cəhdlərdən diqqəti yayındırmaq məqsədi daşıyır.

İndoneziya Respublikasının
Xarici İşlər Nazirliyinə,
bütün Diplomatik,
Konsulluq və Birləşmiş Millətlər
Təşkilatının nümayəndəliklərinə,
ASEAN Katibliyinə və Avropa Komissiyasının Nümayəndəliyinə
Cakarta şəhəri

Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə həllini dəstəklədiyini bildirir və beynəlxalq ictimaiyyəti ATƏT-in MİnsK Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə maneələr yaradan "seçkiləri" rədd etməyə çağırır.

Səfirlik fürsətdən istifadə edərək bir daha İndoneziya Respublikasının Xarici İşlər Nazirliyinə, Cakartadakı bütün Diplomatik, Konsulluq və Birləşmiş Millətlər Təşkilatının nümayəndəliklərinə, ASEAN Katibliyinə və Avropa Komissiyasının Nümayəndəliyinə öz dərin ehtiramını bildirir.

Cakarta, 6 iyul, 2007-ci il